**Sariyev K.A.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.200-211**
**UDC: 342.25**

# Principles of social security law based on modern pension legislation and the concept of pension reform as principles in the field of social security law

**Abstract:** In the theory of law, the general elements of the legal system include a legal norm, a legal institution, a subfield of law, a field of law, etc. is attributed. As the primary element of the legal system, there is a general mandatory rule of conduct, defined or sanctioned by the state, which defines subjective rights and imposes legal duties on the participants of the regulated social relationship. The signs characterizing the social security law as an independent field of law include the following:

1) Homogeneity of public relations arising in connection with the provision of appropriate types of social security to the population by the competent state bodies according to the rules and norms established by this legislation and the restoration of violated rights;

2) Determination of special methods of regulation of these social relations by legislation, at the same time that these relations have a distributive nature and have special subjects;

3) There is a demand of the society for the regulation of these public relations as an independent field of law;

4) The presence of appropriate social principles for this field reflecting social justice in the society;

5) Sufficient volume of legal norms that meet the characteristics of this field institution.

Thus, the set of legal norms with these characteristics forms an independent field of law - social security law. In modern times, the division of the legal system into general and special legal systems is quite relevant. Therefore, existing scientific studies in the theory of social security law cannot fail to consider this problem. At present, the following fields are related to the field of common law in the legal literature: constitutional law, administrative law, financial law, criminal law, criminal procedural law, civil procedural law. Special legal fields include civil law, labor law, family law, entrepreneurial law, banking law, etc. such complex areas are related.

The principles of law are one of the important legal categories both in the theory of general law and in the field of legal sciences. Conceptual approaches to this problem in the theory of general law are of great importance at the level of relevant legal fields. In the legal literature, the principles of law are understood as basic ideas and guiding principles that characterize its content and essence, internal structure and future development. In legal theory, two forms of reflection of principles in legislation are distinguished:

- Textual form - concrete determination of principles in legal norms;
- Form of meaning - the extraction of principles from norms through interpretation

The first case is related to norms and principles. As a rule, they are determined by the subject of regulation. The second case is related to the principles derived from the nature of the norms and

♦ **Sariyev Karim Abil oglu** - Deputy of the Director of the Central Branch of the State Social Protection Fund for Appointment with Special Conditions (Azerbaijan). E-mail: karim.*sariyev*@sosial.gov.az

they are mainly determined by the method of regulation. At present, the textual method of determining field principles (norm principles) is more widespread in norm creation. However, the right to social security belongs to such a field of law that its field principles have not been established in the legislation in the form of norms and principles. This is mainly due to non-codification of social security legislation.

**Keywords:** Constitution of the Republic of Azerbaijan, the law on labor pensions, the Labor Code, the Universal Declaration of Human Rights, the right to social security, the right to pensions, legal relations, normative legal acts, state assistance to low-income families.

**References**

1. Constitution of the Republic of Azerbaijan, Baku, 2015 (in Azerbaijani).
2. Law of the Republic of Azerbaijan "On Social Insurance" dated February 18, 1997 (in Azerbaijani).
3. Law of the Republic of Azerbaijan dated December 30, 2011 "On social service".
4. Constitutional Law of the Republic of Azerbaijan dated December 21, 2010 "On normative legal acts" (in Azerbaijani).
5. Aliyev M.N. Social security law as an independent field of law // Scientific works of the Institute of Philosophical and Political Legal Studies of ANAS. Scientific-theoretical and social-political journal, Baku, 2006, No. 1-2, p. 358-365 (in Azerbaijani).
6. Huseynov P.A. Procedural and procedural features of consideration of citizens' applications and complaints related to the right to social security/ actual problems of the state and law-making in the Republic of Azerbaijan. Collection of scientific articles. 2nd edition. Baku: Digesta Publ., 2002, p. 150-153 (in Azerbaijani).
7. Huseynov C.A. Relations of judges on pension provision as a type of social security legal relations / Actual problems of the state and law-making in the Republic of Azerbaijan. Collection of scientific articles. 18th issue, Baku, 2007, p. 189-195 (in Azerbaijani).
8. Jamalov R.V. The principle of universality of the right to social security / Actual problems of the state and law-making in the Republic of Azerbaijan. Collection of scientific articles. 16th edition. Baku, 2006, p. 205-208 (in Azerbaijani).
9. Sadigov R.H. Perspectives of the codification of legislation on social security / Actual problems of state and law-making in the transition period of the Republic of Azerbaijan. Collection of scientific articles. 14th issue, Baku, Adiloglu Publ., 2006, p. 231-243 (in Azerbaijani).

**Sarıyev K.Ə.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.200-211**
**UOT: 342.25**

## Sosial təminat hüququnun sahədaxili prinsipləri kimi müasir pensiya qanunvericiliyi və pensiya islahatı konsepsiyası əsasında sosial təminat hüququnun prinsipləri

♦ **Sarıyev Kərim Əbil oğlu** - DSMF-nin Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialının direktor müavini (Azərbaycan). E-mail: karim.*sariyev*@sosial.gov.az

**Xülasə:** Hüquq nəzəriyyəsində hüquq sisteminin ümumi elementlərinə hüquq norması, hüquq institutu, hüququn yarımsahəsi, hüquq sahəsi və s. aid edilir. Hüquq sisteminin ilkin elementi kimi tənzimlənən ictimai münasibətin iştirakçılarına subyektiv hüquqlar müəyyən edən və onların üzərinə hüquqi vəzifələr qoyan, dövlət tərəfindən müəyyən olunan, yaxud sanksiyalaşdırılan ümumməcburi davranış qaydası çıxış edir. Sosial təminat hüququnu müstəqil hüquq sahəsi kimi xarakterizə edən əlamətlər aşağıdakılardan ibarətdir:

Əmək bazarında vətəndaşlar konstitusion əmək hüququnu əsasən aşağıdakı formalarda həyata keçirirlər:

- əmək müqaviləsinin bağlanması;
- səhmdar cəmiyyətə üzv qəbul olunması;
- dövlət qulluğuna girmək;
- fərdi sahibkarlıq fəaliyyəti

Əmək hüququnun faktiki həyata keçirilməsi bir halda vətəndaşın, ikinci halda isə işəgötürənin mülahizəsindən, üçüncü halda isə vəzifəyə seçilmə və ya təyin edilmə kimi əlavə hüquqi faktlarla şərtlənir.

Hüququn prinsipləri həm ümumhüquq nəzəriyyəsində, həm də sahəvi hüquq elmlərində mühüm əhəmiyyət kəsb edən hüquqi kateqoriyalardan biridir. Ümumhüquq nəzəriyyəsində bu problemə olan konseptual yanaşmalar müvafiq hüquq sahələri səviyyədə də böyük əhəmiyyət kəsb edir. Hüquq ədəbiyyatında hüququn prinsiplərinə onun məzmununu və mahiyyətini, daxili quruluşunu və gələcək inkişafını xarakterizə edən əsas ideyalar və istiqamətverici başlanğıclar kimi anlayış verilir. Hüquq nəzəriyyəsində prinsiplərin qanunvericilikdə əks olunmasının iki forması fərqləndirilir:

- Tekstual forma - prinsiplərin hüquq normalarında konkret olaraq təsbit olunması;
- Məna forması - prinsiplərin normalardan təfsir yolu ilə çıxarılması

Birinci hal norma-prinsiplərlə bağlıdır. Onlar bir qayda olaraq, tənzimetmə predmeti ilə şərtlənirlər. İkinci hal, normaların mahiyyətindən irəli gələn prinsiplərlə əlaqədardır və onlar əsasən tənzimetmə metodu ilə şərtlənirlər. Hal-hazırda norma yaradıcılığında sahəvi prinsiplərin təsbit olunmasının tekstual üsulu (norma-prinsiplər) daha geniş yayılmışdır. Lakin, sosial təminat hüququ elə bir hüquq sahəsinə aiddir ki, onun sahəvi prinsipləri norma-prinsip şəklində qanunvericilikdə təsbit edilməmişdir. Bu isə əsasən sosial təminat qanunvericiliyinin məcəlləşdirilməməsi ilə bağlıdır.

**Açar sözlər:** Azərbaycan Respublikası Konstitusiyası; Əmək pensiyaları haqqında qanun; Əmək məcəlləsi; Ümumdünya insan hüquqları Bəyannaməsi; sosial təminat hüququ; pensiya hüququ; hüquq münasibətləri; normativ hüquqi aktlar; aztəminatlı ailələrə dövlət yardımı.

Xarakterindən asılı olaraq hüququn prinsipləri sosial-iqtisadi, siyasi, ideoloji, xüsusi-hüquqi və etik kimi növlərə bölünür.

«Sosial sığorta haqqında» 18 fevral 1997-ci il tarixli qanunda isə sosial sığortanın prinsipləri aşağıdakı kimi təsbit olunmuşdur

-sosial sığortanın müntəzəmliyinə dövlət təminatı;

-sosial sığortanın ümumiliyi;

-sosial sığortanın işçilərə əmək qabiliyyətinin itirildiyi hər bir halda təminat verməsi;

-sosial sığorta subyektlərinin hüquq bərabərliyi; - dövlət sosial sığortasının məcburiliyi;

- məcburi dövlət sosial sığortasının idarə edilməsində ictimai təşkilatların iştirakının təmin olunması.

«Əhalinin sağlamlığının qorunması haqqında» 26 iyun 1997-ci il tarixli qanunda əhalinin sağlamlığının qorunmasının əsas prinsipləri kimi aşağıdakılar göstərilmişdir:

- əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti;
- əhalinin sağlamlığının qorunması sahəsində profilaktik tədbirlərin həyata keçirilməsi;
- tibbi-sosial yardımın hamı üçün mümkünlüyü;
- sağlamlığın itirilməsi zamanı vətəndaşların sosial müdafiəsi [2, s. 1].

"Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli qanunda sosial xidmət institunun prinsipləri kimi aşağıdakılar göstərilmişdir:

- insan hüquq və azadlıqlarına riayət olunması;
- humanizm, könüllülük, məxfilik, tolerantlıq, ünvanlılıq, ədalətlilik və əlçatanlıq;
- diskriminasiyaya və stiqmatizasiyaya yol verilməməsi;
- çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsində bərabər imkanların təmin edilməsi;
-sosial inteqrasiya və əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması;
- ictimai iştirakçılığın təmin olunması.

Lakin sosial təminat hüququnun mərkəzi institutu olan pensiya hüququnun prinsipləri qanunvericilikdə leqal şəkildə təsbit edilməmişdir. Azərbaycan Respublikası Prezidentinin 17 iyun 2001-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında pensiya islahatı konsepsiyası» nda təsbit edilmiş prinsiplər isə pensiya islahatının həyata keçirilməsi prosesində mühüm əhəmiyyət kəsb etməklə aşağıdakı prinsipləri özündə əks etdirir:

- məcburi sosial sığorta haqqının bütün işəgötürənlər və işləyənlər tərəfindən ödənilməsi prinsipi - vətəndaşların minimum yaşayış səviyyəsini təmin edən pensiyaların müəyyən edilməsi prinsipi -vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş sosial təminat hüququnun yerinə yetirilməsi prinsipi
- sosial təminat sisteminin idarə olunmasında aşkarlığı təmin etmək məqsədilə ictimai nəzarətin aparılması prinsipi
- mülkiyyət formasından asılı olmayaraq pensiya təşkilatlarının fəaliyyətinə bərabər şəraitin yaradılması prinsipi.

Lakin göstərilən bu prinsipləri pensiya hüququnun prinsipləri kimi xarakterizə etmək olmaz. Sosial təminat hüququnun sahədaxili prinsipləri kimi müasir pensiya qanunvericiliyi və pensiya islahatı konsepsiyası əsasında pensiya hüququnun prinsipləri hüquq ədəbiyyatında aşağıdakı kimi müəyyən edilmişdir:

- pensiya təminatının məcburi dövlət sosial sığortası əsasında həyata keçirilməsi prinsipi;
- pensiya hüququnun həyata keçirilməsi şərtlərinin ümumiliyi və mümkünlüyü prinsipi;
- pensiya təminatı növlərinin müxtəlifliyi prinsipi;
- pensiya təminatının şərtlərinin və normalarının diferensiasiyası prinsipi;
- pensiya təminatının yaşayış minimumu məbləğindən az olmayan məbləğdə təqdim edilməsi prinsipi;
- mülkiyyət formasından asılı olmayaraq, pensiya təminatı təşkilatlarının fəaliyyətinə bərabər şəraitin yaradılması prinsipi;
- vətəndaşların pensiya təminatı hüquqlarının müdafiəsi prinsipi.

Sosial təminat hüququnun əsas prinsipləri bütövlükdə dövlətin sosial siyasətini özündə əks etdirməklə mühüm əhəmiyyət kəsb edirlər. Belə ki, həmin prinsiplər sosial təminat hüquq normaları sisteminin bütövlükdə mahiyyətini əks etdirməklə bu sahədə qanunvericiliyin gələcək inkişafını istiqamətləndirir və qüvvədə olan sosial təminat hüquq normalarının tətbiqinə köməklik edir.

Sosial təminat hüququnun sahəvi prinsiplərinin spesifikliyi onda ifadə olunur ki, onun normaları öz xarakterinə görə bölüşdürücü xüsusiyyətə malik olan ictimai münasibətləri tənzim edir. Sosial təminat hüququ qocaların, xəstə insanların, əlillərin, uşaqlı ailələrin, işsizlərin, aztəminatlı ailələrin ehtiyacı üçün cəmiyyətin ayırdığı vəsaitlərin bölüşdürülməsi prosesində həmin vəsaitlərin istehlakı tədbirlərini təsbit edir. Həmin vəsaitlər isə məhdud olduğuna görə həm sovet dövründə, həm də müasir dövrdə qalıq prinsipinə uyğun olaraq bölüşdürülür. Bu reallıq baxımından ölkədə iqtisadi islahatlar başlayana qədər sosial təminat hüququnda təsbit olunmuş bir çox rəhbər prinsiplər reallaşdırılmamış qalmışdır. Belə ki, əvvəllər sosial təminat hüququnun sahəvi prinsiplərindən biri kimi cəmiyyətin müvafiq inkişaf mərhələsində vətəndaşların tələbatlarını təmin edə biləcək səviyyədə sosial təminatın təqdim edilməsi prinsipi göstərilsə də həmin prinsip nə sovet dövründə, nə də hazırda reallaşdırılmamışdır [8, s. 205].

Sosial təminat hüququnun sahəvi prinsipləri barəsində hüquq ədəbiyyatında müxtəlif fikirlərin olması artıq qeyd olunduğu kimi həmin prinsiplərin qanunvericilikdə təsbit edilməməsi və bu sahədə məcəlləşdirilmiş aktın olmaması ilə bağlıdır. Müasir sosial təminat qanunvericiliyi baxımından isə sosial təminat hüququnun sahəvi prinsipləri kimi aşağıdakıları göstərmək olar:

1) sosial təminatın ümumiliyi;

2) sosial təminatın insanın layiqli həyat şəraitinə təminat verəcək səviyyədə müəyyən edilməsi;

3) sosial təminatın təqdim edilməsi əsaslarının və növlərinin çoxluğu;

4) sosial əhəmiyyətli hallardan asılı olaraq təminatın şərtlərinin və normalarının diferensiasiyası (müxtəlifliyi);

5) sosial təminat məsələlərinə dair qərarların qəbul edilməsində vətəndaşların hüquqlarını müdafiə edən ictimai təşkilatların iştirakının təmin edilməsi prinsipi

Sosial təminatın ümumiliyi hər bir şəxs üçün bərabər və eyni qaydada sosial əhəmiyyətli obyektiv hallar baş verdiyi hallarda müəyyən növ sosial ödəniş və ya sosial xidmət almağın mümkünlüyünü nəzərdə tutmasında və onun cinsi, irqi əlamətlərinə, milliyyətinə, dilinə, mənşəyinə, yaşayış yerinə, əmlak vəziyyətinə, vəzifəsinə, dinə münasibətinə, əqidəsinə, ictimai təşkilatlara münasibətinə və digər şərtlərə görə məhdudlaşdırmamağında ifadə olunur. Sosial təminatın ümumiliyi prinsipi bilavasitə Azərbaycan Respublikası Konstitusiyasının mahiyyətindən irəli gəlir. Belə ki, Azərbaycan Respublikasının 1995-ci il tarixli Konstitusiyasının 38-ci maddəsində hər bir kəsin sosial təminat hüququ təsbit olunmuşdur. Azərbaycan Respublikası vətəndaşları ilə yanaşı Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilər (əgər beynəlxalq sazişlərlə başqa hal nəzərdə tutulmayıbsa) və vətəndaşlığı olmayan şəxslər bərabər əsaslarla sosial təminat hüququna malikdirlər. Müvəqqəti olaraq Azərbaycan Respublikası ərazisində yerləşən xarici vətəndaşlar müvafiq beynəlxalq müqavilələr bağlandığı hallarda sosial təminat almaq hüququna malik olurlar. Qaçqınlara sosial təminatın ayrı-ayrı növləri təqdim olunur.

Bu prinsip sosial təminat hüququnun hər bir institutunun məzmununu əhatə edir və daha çox sosial müavinətlər institutunda realizə olunur."Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkənin bütün əhalisi sosial müavinət sistemi ilə əhatə olunmuşdur və hazırda əmək fəaliyyətindən asılı olmayaraq ümumi sosial müavinətlər sistemi

tətbiq olunur. Pensiya və sosial müavinətlər növündə sosial təminat hüququ hər bir kəsə şamil edilən hüquqdur. Sosial təminatın ümumiliyi prinsipi beynəlxalq hüququn ümumtanınmış norma və prinsiplərinə uyğundur. Lakin hesab edirik ki, «Əmək pensiyaları haqqında» qanunda vətəndaşların əmək pensiyası təminatı hüququ anlayışından istifadə edilməsi düzgün deyildir. Ona görə ki, sosial təminat üçün vətəndaşlıq əhəmiyyət kəsb etmir. Belə ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər də qanunla müəyyən edilmiş şərtlərə riayət etməklə sosial təminatın bu və ya digər növünü almaq hüququna malikdirlər. Məsələn, «Əmək pensiyaları haqqında» qanunun3-cü maddəsinə görə, Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin vəvətəndaşlığı olmayan şəxslərin həmin qanunla nəzərdə tutulmuş şərtlərlə Azərbaycan Respublikasının vətəndaşları iləbərabər əsaslarla əməkpensiyası təminatı hüququ vardır. Sosial təminatın ümumilyi prinsipi həm də vətəndaşların sosial yardımla, sosial xidmətlərlə, tibbi yardım və müalicə ilə, pulsuz və ya güzəştli qiymətlərlə dərman yardımı ilə təminatını tənzim edən normalarda da özünü göstərir. Bununla yanaşı bəzi güzəştlərin nəzərdə tutulması ilə əlaqədar olaraq ümumilik prinsipi haqqında müəyyən qədər şərti olaraq danışmaq olar. Belə ki, güzəşt özü müəyyən mənada bütün digər şəxslərə münasibətdə təminatla bağlı müəyyən üstünlükləri nəzərdə tutur [9, s. 231]

Sosial yardımın ümumiliyi isə ondan ibarətdir ki, ehtiyac meyarından aşağı səviyyədə gəliri olan istənilən aztəminatlı ailə sosial yardım almaq hüququna malikdir. Bu prinsip hərbi qulluqçular və xüsusi rütbəli şəxslərin sosial təminatı sahəsində də eyni qüvvəyə malikdir.

**Sosial təminatın insanın layiqli həyat şəraitinə təminat verəcək səviyyədə müəyyən edilməsi prinsipi.** Bu prinsip beynəlxalq hüquq normalarının (Ümumdünya insan hüquqları Bəyannaməsinin, İqtisadi, mədəni və sosial hüquqlar haqqında Beynəlxalq Paktın, Avropa Sosial Xartiyasının və s.) mahiyyətindən irəli gəlməklə Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunmuşdur (Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsi). Müasir dövrdə təqdim edilən sosial təminatın bu və ya digər növlərinin səviyyəsi yaşayış minimumu tələbinə cavab vermədiyi üçün bu prinsip yerinə yetirilmir. Lakin bu heç də dövləti beynəlxalq hüquq normalarına görə öz üzərinə götürdüyü öhdəliklərdən azad etmir. Bu prinsipin reallaşdırılması üçün ilk növbədə hər bir insan qanunla müəyyən edilmiş yaşayış minimumu həddinin müvafiq səviyyəsindən aşağı olmayan məbləğdə gəlirlə təmin edilməlidir. Həmin prinsip dövlətin sosial təminatın yaşayış minimumundan aşağı olmayan səviyyədə təmin etmək vəzifəsini nəzərdə tutur. Lakin yaşayış minimumu heç də insanın layiqli həyat səviyyəsini təmin etmir. Bundan başqa bəzən yaşayış minimumu səviyyəsində təminatın nəzərdə tutulması obyektiv cəhətdən zəruri olmur və buna sosial baxımdan bəraət verilmir. Göstərilən bu prinsip sosial təminat hüquq normalarının gələcək inkişaf perspektivləri ilə bağlı olan prinsipdir.

**Sosial təminatın təqdim edilməsi əsaslarının və növlərinin çoxluğu prinsipi.** Sosial təminatın dövlət sisteminin formalaşdığı bir dövrdə insanın sosial təminat hüququnun yaranmasını şərtləndirən əsaslar (sosial risklər) yalnız əmək qabiliyyətinin itirilməsini, dul qalmanı və qocalığı əhatə edirdi. Sosial-iqtisadi şəraitin dəyişməsi və sivilizasiyanın inkişafı ilə bu hallar fasiləsiz olaraq genişlənməyə başladı. Ümumdünya insan hüquqları Bəyannaməsi (1948-ci il) cəmiyyətin hər bir üzvünün sosial təminat hüququnu təsbit edərək belə əsaslara təkcə qocalığı, əmək qabiliyyətinin itirilməsini, dul qalmanı deyil, həm də işsizliyi və insanın özündən asılı olmayan səbəblərdən yaşamaq üçün gəlir mənbəyindən məhrum olduğu digər halları da aid etmişdir. Bundan başqa sosial təminatın müstəqil əsaslarına həmin Bəyannamə ilə analıq və uşaqlıq da aid edilmişdir. Müxtəlif ölkələrin milli qanunvericiliyi ilə sosial təminatın təqdim edilməsi əsasları konkretləşdirilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyi baxımından sosial təminatın təqdim edilməsi

əsaslarına aşağıdakılar aid edilir: qanunla müəyyən edilmiş yaş həddinə çatma (qocalıq), əlillik, müvəqqəti əmək qabiliyyətsizliyi, ailə başçısının itirilməsi, uşağın doğulması, insanın ölümü, tibbi müalicəyə və yardıma, dərman yardımına, protez-ortopedik yardıma, nəqliyyat vasitəsinə ehtiyac, yoxsulluq, ailədə uşaqların tərbiyə edilməsi; analıq və uşaqlıq; məcburi köçkünlük və s. Sosial təminatın təqdim edilməsi əsaslarının müxtəlifliyi bilavasitə onun növlərinin müxtəlifliyi ilə əlaqədardır. Belə ki, sosial təminat vətəndaşlara həm pul, həm də natura formasında təqdim edilir. Sosial təminat sistemi üzrə əmək pensiyaları (yaşa görə, əlilliyə görə, ailə başçısının itirilməsinə görə), sosial müavinətlər (əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuşa görə, işsizliyə görə və s.), müxtəlif kompensasiya ödəmələri, dövlət sosial yardımı pul formasında təqdim edilir. Tibbi və dərman yardımı, sosial xidmətin müxtəlif formaları, o cümlədən müxtəlif sosial güzəştlər isə natura formasında təqdim edilir.

**Sosial əhəmiyyətli hallardan asılı olaraq təminatın şərtlərinin və normalarının diferensiasiyası (müxtəlifliyi) prinsipi**. Sosial təminat hüququ ilə tənzim edilən ictimai münasibətlər sistemi mürəkkəb və çox aspektlidir. Sosial təminat cins, yaş, keçmiş əmək şəraiti, sağlamlığın vəziyyəti, ailə vəziyyəti, bir çox hallarda yaşamaq üçün gəlir mənbəyinin itirilməsinə səbəb olan digər hallar və s. kimi amilləri nəzərə alır. Sosial təminat hüququnda hamı üçün ümumi olan hüquq normaları ilə yanaşı, ayrı-ayrı kateqoriya vətəndaşlar üçün və ya dövlət qarşısında xüsusi xidmətlərə malik olan şəxslər üçün əlavə hüquqlar nəzərdə tutan xüsusi normalarda (güzəştlərdə) müəyyən olunur. Güzəştlərin isə aşağıdakı əsaslara görə təsnifatını aparmaq olar:

- subyektlərə görə (əlillər, Azərbaycan Respublikasının Milli Qəhrəmanları, Çernobıl AES-da qəzanın nəticələrini aradan qaldırılmasında iştirak edənlər və s.);
- məzmununa görə (pensiya yaşına çatmamış pensiya hüququ əldə etmək; dərmanların pulsuz əldə edilməsi, mənzil və məişət xidməti xərclərindən azad olunmaq, pulsuz mənzil və nəqliyyat vasitələri ilə təmin edilmə və s.);
- maliyyələşdirmə mənbəyinə görə (respublika və yerli büdcələr, büdcədənkənar fond kimi Dövlət Sosial Müdafiə Fondu və s.) Sosial cəhətdən müdafiə olunmayan vətəndaşların müxtəlif qruplarının maddi vəziyyətini bərabərləşdirmək və cəmiyyətin tam hüquqlu üzvü kimi onların statusunu bərpa etmək məqsədləri üçün diferensiasiyanın aparılması zəruridir. Lakin diferensiasiya bütövlükdə sosial təminat sisteminin inkişafı üçün maneəyə çevrilməməli və həddən artıq olmamalıdır. Sosial təminat sistemini stabilləşdirmək məqsədilə bir kateqoriyadan olan vətəndaşlara digərlərinin hesabına güzəştlərin verilməsi ilə bağlı olan yeni normaların qəbul edilməsinə üçün moratorium elan edilməlidir [5, s. 358].

Sosial təminat məsələlərinə dair qərarların qəbul edilməsində vətəndaşların hüquqlarını müdafiə edən təşkilatların iştirakının təmin edilməsi prinsipi.Bu prinsipdə vətəndaşların öz maraqlarını müdafiə etmək üçün birləşmək, dövlət işlərinin idarə olunmasında bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak etmək, habelə dövlət orqanlarına şəxsən müraciət etmək, bu orqanlara fərdi və kollektiv müraciətlər göndərmək kimi konstitusion hüquqları konkretləşdirilir. Veteranlar, əlillər, şəhid ailələri ictimai birliklərinin təşəbbüsü ilə artıq bir sıra qanunlar qəbul olunmuşdur. Məsələn, «Veteranlar haqqında», «Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında», «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında» qanunlar buna misal ola bilər.

Sosial təminat hüququna dair ədəbiyyatlarda sosial təminat hüququ mənbələrinə müxtəlif anlayışlar verilmişdir. Beləliklə, sosial təminat hüququnun mənbələri dedikdə dövlətin vətəndaşlara

sosial təminat sistemi üzrə pensiyaların, müavinətlərin, sosial xidmətlərin və digər sosial təminat növlərinin təqdim edilməsi ilə bağlı olan ictimai münasibətlərin tənzim olunmasına yönəldilmiş iradəsinin ifadə formaları və üsulları başa düşülür. Sosial təminat hüququnun mənbələri cəmiyyətin maddi həyat şəraitini əks etdirir və bu şəraitin dəyişməsi ilə onun mənbələri də dəyişir. Hazırda sosial təminat hüququnda köhnəlmiş aktlar ləğv edilir və ya mövcud sosial təminat qanunvericiliyinə çoxlu əlavə və dəyişikliklər olunur, yaxud da yeni bazar münasibətlərinə uyğun olan aktlar qəbul edilir.

Sosial təminat hüququ mənbələrini onun tənzim etdiyi ictimai münasibətlərin dairəsinə görə aşağıdakı kimi təsnifləşdirmək olar:

1. Sosial təminat sistemi üzrə pul ödəmələri ilə (pensiya, müavinət, dövlət sosial yardımı və s.) bağlı yaranan münasibətləri tənzimləyən normativ aktlar;

2. Sosial təminatın "natural" növləri ilə (tibbi yardım və müalicə, sanatoriyakurort müalicəsi, sosial xidmət, protez ortopedik yardım və s.) bağlı yaranan münasibətləri tənzim edən normativ aktlar;

3. Sosial təminat sistemi üzrə pul ödəmələri və sosial təminatın "natural" növləri ilə bağlı yaranan prosedur və prosessual xarakterli münasibətləri (hüquqi faktın müəyyən edilməsi, sosial təminata olan hüququn reallaşdırılması, pozulmuş hüquqların müdafiəsi) tənzimləyən normativ aktlar.

Məzmununa görə sosial təminat hüququnun mənbələri maddi və prosessual normalara bölünür. Belə ki, maddi normalar bu və ya digər halı müəyyən edir, müəyyən hüquq və vəzifələri rəsmiləşdirir. Prosessual normalar isə bu və ya digər məsələnin həyata keçirilmə formasını və qaydasını müəyyənləşdirir. Təsir dairəsinə görə isə sosial təminat hüququnun mənbələri respublika, sahəvi, sahələrarası və lokal əhəmiyyətli aktlara bölünürlər. Sosial təminat hüququnun mənbələri onları qəbul edən orqanlara görə aşağıdakı kimi təsnifləşdirilir:

a) ali qanunvericilik orqanı tərəfindən qəbul edilmiş normativ aktlar (qanunlar, qərarlar);

b) Azərbaycan Respublikası Prezidenti və Nazirlər Kabineti tərəfindən qəbul edilən aktlar (fərmanlar, qərarlar);

c) mərkəzi dövlət idarəçilik orqanları tərəfindən qəbul edilən normativ aktlar (Məsələn, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qəbul edilən aktlar);

ç) yerli özünüidarəetmə orqanları tərəfindən qəbul edilən aktlar;

d) lokal xarakterli aktlar (kollektiv müqavilə, rayon sazişləri və s.).

Göründüyü kimi sosial təminat hüququ sahəsində verilən normativ aktlar onu qəbul edən orqandan, onun səlahiyyətlərindən (ümumi səlahiyyətli, yaxud xüsusi səlahiyyətli) asılı olaraq müxtəlif adlara malik olurlar.

Sosial təminat hüququnun mənbələri içərisində ən mühüm və əsas yeri Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixli Konstitusiyası tutur. Azərbaycan Respublikasının Konstitusiyası ən yüksək hüquqi qüvvəyə malikdir və respublikamızın qanunvericilik sisteminin əsasını təşkil edir. Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsi (sosial inkişaf və dövlət), 17-ci maddəsi (ailə və dövlət), 38-ci maddəsi (sosial təminat hüququ), 41-ci maddəsi (sağlamlığın qorunması hüququ), 42-ci maddə (təhsil hüququ) - sosial təminat hüququnun mənbələrinin əsasını təşkil edir [1, s. 8].

Azərbaycan Respublikası Konstitusiyasında dövlətin sosial müdafiə sisteminin əsas istiqamətləri öz əksini tapmışdır. Onlar əsasən aşağıdakılardan ibarətdir:

a) ailənin, uşaqların və anaların dövlətin xüsusi himayəsində olması;

b) əlillərə və əmək qabiliyyəti olmayan başqa şəxslərə pensiya və müavinətlərin verilməsi; v) məşğulluq xidməti sistemini yaratmaq və işsizlərə müavinət vermək;

q) pensiyaların və sosial müavinətlərin minimum məbləğinin qanunvericiliklə müəyyən edilməsi.

Göstərilən bu konstitusiya hüquq normaları öz əksini qanunlarda, fərmanlarda və digər normativ hüquqi aktlarda tapmışdır («Veteranlar haqqında», «Əlilliyi olan şəxslərin hüquqları haqqında», «Əmək pensiyaları haqqında», Sosial xidmət haqqında», «Sosial müavinətlər haqqında» və s. qanunlar).

Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə görə cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə isə dövlət nəzarət edir. Ailənin (ananın və uşaqların) müdafiəsi sosial-iqtisadi xarakter daşıyır və onlara müəyyən güzəştlərin verilməsi, anaların və uşaqların mənafeyinin müdafiəsi, onlara sosial yardım etmək vətəndaşların ailə hüquqlarını təmin etmək yolu ilə həyata keçirilir. Konstitusiyanın 38-ci maddəsində isə hər bir kəsin sosial təminat hüququ təsbit olunur. Həmin maddəyə görə, hər bir kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial tə`minat almaq hüququna malikdir. Təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir. Dövlət xeyriyyəçilik fəaliyyətinin, könülü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır. Konstitusiyanın 38-ci maddəsinə görə sosial təminatın pul forması - pensiyalar və sosial müavinətlər nəzərdə tutulur. Lakin zəruri hallarda pul ödəmələrinə sosial təminatın natural formaları da əlavə oluna bilər. Sosial təminatın natural formalarına isə aiddir: qocaları və əlilləri internat evlərində saxlama, yetimləri uşaq evlərinə yerləşdirmək və s [6, s. 153].

Məlumdur ki, sosial hüquqlar insanın layiqli həyat səviyyəsini və sosial müdafiəsini təmin edir. Pensiya təminatı, sosial müavinət, sosial yardım, sosial xidmət və tibbi xidmət də daxil olmaqla sosial təminat hüququ ən mühüm sosial hüquqlardan biridir. Cəmiyyətdə artıq çoxdan ədalətlilik, azadlıq, insanın ayrılmaz hüquqları, o cümlədən sosial hüquqlar haqqında ümumbəşəri ideyalar və dəyərlər formalaşmışdır. Getdikcə daha geniş məzmuna malik olmaqla bu ideyalar hüquqi və sosial dövlət konsepsiyasının əsasında dayanır. Cəmiyyətin sosial həyatının təşkili və insanlar arasında qarşılıqlı münasibətlərin əsas prinsipləri artıq beynəlxalq aktlarda təsbit olunmuşdur. Bu prinsiplər bütün inkişaf etmiş və sivilizasiyalı ölkələrin hüquq sisteminin əsasını təşkil edir. Bütün bunlar tam şəkildə sosial təminat hüququna da aiddir. Sosial təminat hüququnun mənbələri sistemində öz hüquqi qüvvəsinə görə ən mühüm yerlərdən birini qanunlar təşkil edir. «Əmək pensiyaları haqqında», «Sosial müavinətlər haqqında», «Çernobıl qəzasının ləğvində iştirak etmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında», «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında», «Sosial sığorta haqqında», «Məşğulluq haqqında», «Veteranlar haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olunmuş uşaqların sosial müdafiəsi haqqında», «Tibbi sığorta haqqında», «Uşaq hüquqları haqqında», «Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında», «Ahıllara sosial xidmət haqqında» Azərbaycan Respublikası qanunları da sosial təminat hüququnun mənbələri içərisində başlığa yer tuturlar.

Sosial təminat hüququnun mənbələri sırasında Azərbaycan Respublikasının Əmək Məcəlləsi əsas yerlərdən birini tutur. Həmin Məcəllənin 304-cü maddəsinə görə bütün işçilər hökmən məcburi sosial sığortası ilə əhatə olunmalıdırlar. İşçilərin sosial sığortası əsasən məcburi dövlət sığortası formasında həyata keçirilir.

Beləliklə, məqalədə sosial təminat hüququa elmdə formalaşmış anlayış verilmiş, onun tənzim etdiyi ictimai münasibətlərin dairəsi göstərilmiş, sosial təminat hüququnun metodunun xüsusiyyətləri araşdırılmışdır. Həmçinin, bu mövzuda sosial təminat hüququ prinsiplərinin və mənbələrinin anlayışı verilmiş, həm prinsiplərin həm də mənbələrin təsnifatı verilmiş, sosial təminat hüquq münasibətlərinin anlayışı təsbit olunmaqla yanaşı, bu münasibətlərin yaranmasını, dəyişməsini və xitamını şərtləndirən hüquqi faktlar, habelə sosial təminat hüquq münasibətlərinin subyektləri, obyektləri və məzmunu təsbit olunmuşdur.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2015
2. «Sosial sığorta haqqında» Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli Qanunu
3. «Sosial xidmət haqqında» Azərbaycan Respublikasının 30 dekabr 2011-ci il tarixli Qanunu
4. «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanunu. Bakı: Qanun, 2013
5. Əliyev M.N. Sosial təminat hüququ hüququn müstəqil sahəsi kimi // AMEA-nın Fəlsəfə və Siyasi Hüquqi Tədqiqatlar İnstitutunun elmi əsərləri. Elmi-nəzəri və ictimai - siyasi jurnal, Bakı, 2006, № 1-2, s. 358-365
6. Hüseynov P.A. Vətəndaşların sosial təminat hüququ ilə bağlı ərizə və şikayətlərinə baxılmasının prosedur və prosessual xüsusiyyətləri/ Azərbaycan Respublikasında dövlət və hüquq qurulucuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 2-ci buraxılış. Bakı: Digesta, 2002, s. 150-153
7. Hüseynov C.Ə. Hakimlərin pensiya təminatı üzrə münasibətləri sosial təminat hüquq münasibətlərinin növü kimi / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 18-ci buraxılış, Bakı, 2007, s. 189-195
8. Camalov R.V. Sosial təminat hüququnun ümumiliyi prinsipi // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 16-cı buraxılış. Bakı, 2006, s. 205-208
9. Sadıqov R.H. Sosial təminat haqqında qanunvericiliyin məcəlləşdirilməsi perspektivləri / Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. 14-cü buraxılış, Bakı, Adiloğlu, 2006, s. 231-243


**Сарыев К.А.** ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.74.200-211**
**УДК: 342.25**

### Принципы права социального обеспечения на основе современного

♦ **Сариев Карим Абил оглы -** заместитель директора Центрального филиала Государственного фонда социальной защиты с особыми условиями назначения (Азербайджан). E-mail: karim.*sariyev*@sosial.gov.az

**пенсионного законодательства и концепция пенсионной реформы как принципы в области права социального обеспечения**

**Аннотация:** В теории права к общим элементам правовой системы относятся правовая норма, правовой институт, подотрасль права, область права и т.п. приписывается. В качестве первичного элемента правовой системы выступают общие обязательные правила поведения, определяемые или санкционированные государством, которые определяют субъективные права и налагают юридические обязанности на участников регулируемых общественных отношений. К признакам, характеризующим право социального обеспечения как самостоятельное правовое поле, относятся следующие:

На рынке труда граждане реализуют свое конституционное право на труд преимущественно в следующих формах:

- заключение трудового договора;
- стать участником акционерного общества;
- поступить на государственную службу;
- индивидуальная предпринимательская деятельность

Фактическая реализация права на труд обусловлена усмотрением гражданина в одном случае, во втором случае работодателем, а в третьем случае дополнительными юридическими фактами, такими как избрание или назначение. Принципы права являются одной из важных правовых категорий как в теории общего права, так и в области юридических наук.

Концептуальные подходы к этой проблеме в теории общего права имеют большое значение на уровне соответствующих правовых полей. В юридической литературе под принципами права понимаются основные идеи и руководящие принципы, характеризующие его содержание и сущность, внутреннюю структуру и дальнейшее развитие. В теории права выделяют две формы отражения принципов в законодательстве:

- текстовая форма - конкретное определение принципов в правовых нормах;
- Форма значения – извлечение принципов из норм посредством интерпретации.

Первый случай связан с нормами и принципами. Как правило, они определяются предметом регулирования. Второй случай связан с принципами, вытекающими из природы норм и определяемыми главным образом методом регулирования. В настоящее время в нормотворчестве большее распространение получил текстовый метод определения полевых принципов (нормопринципов). Однако право на социальное обеспечение относится к такой области права, что его отраслевые принципы не закреплены в законодательстве в виде норм и принципов. В основном это связано с некодификацией законодательства о социальном обеспечении.

**Ключевые слова:** Конституция Азербайджанской Республики; Закон о трудовых пенсиях; Трудовой кодекс; Всеобщая декларация прав человека; закон о социальном обеспечении; пенсионное право; правоотношения; нормативные правовые акты; государственная помощь малообеспеченным семьям.

**Библиография**

1. Конституция Азербайджанской Республики. - Баку, 2015 (на азерб. яз.).

2. Закон Азербайджанской Республики «О социальном страховании» от 18 февраля 1997 года. (на азерб. яз.).

3. Закон Азербайджанской Республики от 30 декабря 2011 года «О социальном обслуживании» (на азерб. яз.).

4. Конституционный Закон Азербайджанской Республики от 21 декабря 2010 года «О нормативных правовых актах». - Баку: Закон, 2013 (на азерб. яз.).

5. Алиев М.Н. Право социального обеспечения как самостоятельная область права // Научные труды Института философских и политико-правовых исследований НАНА. Научно-теоретический и общественно-политический журнал. - Баку, 2006. - № 1-2. – С . 358-365 (на азерб. яз.).

6. Гусейнов П.А. Процессуальные и процессуальные особенности рассмотрения обращений и жалоб граждан, связанных с правом на социальное обеспечение//Актуальные проблемы государства и правотворчества в Азербайджанской Республике. Сборник научных статей. 2-е издание. Баку: Дайджеста, 2002, с. 150-153 (на азерб. яз.).

7. Гусейнов Ж.А. Отношения судей по пенсионному обеспечению как вид правоотношений по социальному обеспечению // Актуальные проблемы государства и правотворчества в Азербайджанской Республике. Сборник научных статей. Выпуск 18, Баку, 2007, с. 189-195 (на азерб. яз.).

8. Джамалов Р.В. Принцип универсальности права на социальное обеспечение / Актуальные проблемы государства и правотворчества в Азербайджанской Республике. Сборник научных статей. 16-е издание. Баку, 2006, с. 205-208 (на азерб. яз.).

9. Садыгов Р.Х. Перспективы кодификации законодательства о социальном обеспечении // Актуальные проблемы государства и правотворчества в переходный период Азербайджанской Республики. Сборник научных статей. Выпуск 14, Баку, Адилоглу, 2006, с. 231-243 (на азерб. яз.).